Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 140 (7867) CÜMƏ AXŞAMI, 28 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Gün gələcək, işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək

## Bu müqəddəs günün yaxınlaşdığını bəyan edən ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV möhtəşəm hərbi paradda bütün dünyaya mesaj verdi:

- Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır;
- Ölkəmizdə 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunur;
- Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir;
- Ermənistan ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mifini darmadağın etdik;
- Düşmənin bütün hərbi obyektləri, strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən hər an məhv edilə bilər;
- Ermənilərin illər boyu yaratdıqları müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik;
- Tarixi ədalət, beynəlxalq hüquq, iqtisadi və hərbi güc, vətənpərvərlik ruhu bizim tərəfimizdədir;
- Aprel və Naxçıvan qələbələri bir daha əmin edir ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

- *Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir.*
- *2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq.*
- *Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq.*
- *Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir. Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun. Ona görə edirik ki, hərbi potensialımız güclənsin.*
- *Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir.*
- *Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin.*
- *Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək.*
- *Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir.*
- *Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.*
- *2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib.*










Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamladı.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söylədi.

## Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi

- Əziz əsgərlər, zabitlər, generallar!

Əziz hərbçilər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Ordusunun 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar, yeni nailiyyətlər arzulayıram.

Keçən ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan biri Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.

Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edilmişdir. Ancaq bildiyimiz kimi, müstəqilliyimizin ilk iki ili ölkəmiz üçün çox ağır keçmişdir, faciəvi illər idi. Sanki tarix XX əsrin sonunda təkrarlanırdı. 1991-1993-cü illərdə Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Ölkə idarəolunmaz vəziyyətdə idi. Müstəqilliyimiz formal, şərti xarakter daşıyırdı. Azərbaycan müstəqil siyasət apara bilmirdi. Ölkə daxilində çəkişmələr, hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. 1992-ci ildə Xalq Cəbhəsi və Müsavat tərəfindən dövlət çevrilişi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycanda vəziyyət kritik həddə çatmışdı.

*Ardı 2-5-ci səh.*

# Gün gələcək, işğal altındakı torpaqlar Azərbaycan bayrağı Azadlıq meydanına

*Əvvəli 1-ci səh.*





Bundan istifadə edən Ermənistan xalqımıza, gənc dövlətimizə qarşı işğalçılıq siyasəti aparırdı. Bu siyasət nəticəsində torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Demək olar ki, müstəqilliyimizin ilk iki ili Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.

Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, ulu öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır.

2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.

Qeyd etdiyim kimi, Ermənistan müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən mənfi proseslərdən, o cümlədən Xalq Cəbhəsi-Müsavat tərəfindən başlanmış vətəndaş müharibəsindən istifadə edərək torpaqlarımızı zəbt etmişdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. Beynəlxalq hüquqa görə də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Son illər ərzində dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul etmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir və orada da göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib.

Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Aralarında uşaqlar, qadınlar, qocalar da olan 600-dən çox günahsız insan erməni cəlladları tərəfindən qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür. Bu gün dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb.

Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.





2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradılmışdır.





Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcək.

Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır.







# azad olunandan sonra orada qaldırılacaq gətiriləcək və hərbi paradda göstəriləcək








Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun. Ona görə edirik ki, hərbi potensialımız güclənsin. Ona görə edirik ki, görürük və dünyada gedən proseslər də onu göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir. Belə olan halda, əlbəttə ki, bizim apardığımız siyasət düzgün siyasətdir. Bu siyasəti biz uzun illərdir ki, aparırıq. Bu hərbi potensialı biz bir ilə əldə etməmişik. Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində biz dünyanın ən müasir silahlarını əldə etmişik və bu proses davam etdiriləcəkdir. Bundan sonra da Azərbaycan ən müasir silah və texnikanı alacaq. Buna nail olmaq üçün bizim dost ölkələrlə çox səmərəli əlaqələrimiz var. Bizim böyük maliyyə resurslarımız və güclü iradəmiz var.

Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir.

Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək. Ona görə, hesab edirəm ki, məsələnin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi qarşı tərəfin də marağında olmalıdır.

Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan!

Ardı 4-cü səh.





# Gün gələcək, işğal altındakı torpaqlar Azərbaycan bayrağı Azadlıq meydanına

*Əvvəli 3-cü səh.*

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.

AZƏRTAC xəbər verir ki, Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı gətirildi.

Yüz il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli dövlət bayrağımız 72 ildən sonra ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yenidən qaldırılıb. Xalqımız və Silahlı Qüvvələrimizin şəxsi heyəti bu bayraq altında yeni-yeni zəfərlərə doğru inamla irəliləməkdədir.





Dövlət bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayırdılar. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının ərazilərinin bir hissəsinin işğaldan azad edilməsində xüsusi xidmətləri olan hərbi hissələrin və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək 11 min hektar ərazinin nəzarətə götürülməsində fərqlənən Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinin döyüş bayraqları tribuna önündən aparıldı.

Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarından ibarət parad heyəti tribunaya yaxınlaşdı. Xalqımızın haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırdığı bu xüsusi təyinatlı təhsil ocağının Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolu var.

Azərbaycan Ordusunun zabitlərindən ibarət parad heyətləri də mətin addımlarla tribunanın önündən keçdi. Ulu öndər Heydər Əliyev vaxtilə demişdir: "Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir!" Zabitlərimiz xalqımızın və ordumuzun gələcəyinin təminatıdır.

Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti tribunanın önündən keçdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müxtəlif ixtisaslar üzrə peşəkar zabitlər hazırlanır. Onlar hərbi xidmətin çətinliklərinin öhdəsindən layiqincə gələrək respublikamızın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda hər bir əmrə hazırdırlar. Məktəbin 15 məzunu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunları, Hərbi Dəniz Qüvvələri fakültələrində aviasiyanın döyüş idarəetməsi, eləcə də dənizçi ixtisasları üzrə peşəkar zabitlər, təyyarəçilər, şturmanlar, mexaniklər, silahlanmanın müxtəlif sistemləri üzrə mütəxəssislər, aviasiya xidmətləri, radiotexniki vasitələr üzrə mühəndislər hazırlanır.

İlk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyəti də iştirak etdi. 1918-ci il sentyabrın 15-də türk-Azərbaycan birləşmiş qoşunlarının cəmləşdiyi Qafqaz İslam Ordusu bu möhtəşəm hərbi paradın keçirildiyi Bakını daşnak-bolşevik qüvvələrindən təmizləyərək Azərbaycan dövlətinin paytaxtını azad etdi. Türk ordusunun parad heyətinin bu tədbirdə iştirakı da 100 il əvvəl olduğu kimi, sarsılmaz dostluğun və qardaşlığın növbəti göstəricisi oldu.

Sülhməramlı, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən hərbi qulluqçular da mətin addımlarla tribuna önündən keçdilər. Sülhməramlı taborumuz sülhməramlı əməliyyatlarda fəal iştirak edir, beynəlxalq sülhün və sabitliyin bərqərar olunmasına ölkəmizin töhfəsini verir. Azərbaycan sülhməramlıları hazırda NATO-nun "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası çərçivəsində Əfqanıstanda vəzifələrini şərəflə yerinə yetirirlər.





Doğma Azərbaycanımızın qorxmaz, igid övladları - Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları tribuna önündən keçərək vətənə, xalqa, dövlətə, Ali Baş Komandana və Heydər Əliyev ideyalarına öz sədaqətlərini bir daha bildirdilər.

Müasir silah, xüsusi avadanlıq və texnika ilə təchiz edilmiş Xüsusi Təyinatlılar ən ekstremal şəraitdə belə düşmən dərinliyində mühüm əhəmiyyətli obyektləri ələ keçirmək, qarşıya qoyulmuş digər müxtəlif dərəcəli tapşırıqları uğurla yerinə yetirmək imkanına malikdirlər. Şəxsi heyətin tribuna önündən keçməsi ilə eyni vaxtda paraplanlarda uçuş fəaliyyətləri nümayiş etdirilərək havada xüsusi tapşırıqlar yerinə yetirildi.





Dəniz piyadaları və döyüş dalğıcları dövlət dəniz hüdudlarının müdafiəsi üzrə dənizdə və su altında bütün tapşırıqları yerinə yetirməyə hər an hazırdırlar. Onlar vətəndaşın, cəmiyyətin və dövlətin mənafeyinin qorunması, ictimai asayişin mühafizəsi, həmçinin mühüm dövlət obyektlərinin mühafizəsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Dövlət Təhlükəsizliyi Xidməti xalqımızın mənafeyini və dövlətimizin təhlükəsizliyini bu gün qətiyyətlə qoruyur. Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti fövqəladə halların fəsadlarının aradan qaldırılması, xilasetmə və humanitar əməliyyatların həyata keçirilməsi üzrə öz vəzifələrini nəinki ölkə daxilində, habelə xarici dövlətlərdə də şərəflə yerinə yetirir. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları vətənimizin hüdudlarını etibarlı şəkildə mühafizə edirlər. Xüsusi Dövlət Mühafizə Xidməti ölkə rəhbərliyinin, respublikamıza gələn xarici ölkələrin rəsmi nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, həmçinin mühüm dövlət obyektlərinin, o cümlədən neft-qaz infrastrukturunun mühafizəsinin təşkili və təmin edilməsi üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir.

Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Zaman bu deyilənlərin nə qədər həqiqət olduğunu tarixdə dəfələrlə sınaqdan çıxarıb. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Azərbaycan əsgəri bu keyfiyyətlərini 2016-cı ilin aprel döyüşlərində, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində də bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır. Strateji əhəmiyyət daşıyan bu yüksəkliklərin geri qaytarılması sübut edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında öz tarixi torpaqlarını mütləq geri qaytaracaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcək, dövlət bayrağımız Şuşada, Xankəndidə, Laçında və işğal altında olan digər torpaqlarımızda da vüqarla dalğalanacaq.





Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət etdi.

Sonra hərbi paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikaların keçidi başladı. Bu texnikalar bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir.

Çoxtəyinatlı zirehli avtomobillər tribuna önündən keçdi. Bu avtomobillər kəşfiyyat, komanda-qərargah, müxtəlif silah növləri ilə təchiz edilmiş xüsusi çevik qüvvələrin xidmətində olmaqla bir neçə konfiqurasiyada mövcuddur.

Zirehli avtomobillər üzərində quraşdırılmış "SPAYK-LR", silahlanmaya yeni qəbul edilmiş daha güclü "SPAYK-ER" tank əleyhinə idarə olunan raket kompleksləri paradı izləyənlərin böyük marağına səbəb oldu. 2016-cı ilin aprel döyüşləri zamanı bu silah vasitəsilə 30-dan artıq düşmən tankı və digər zirehli döyüş texnikası məhv edilib.



# azad olunandan sonra orada qaldırılacaq gətiriləcək və hərbi paradda göstəriləcək




















Üzərində pilotsuz uçuş aparatları əleyhinə qurğu yerləşdirilmiş zirehli avtomobillər, mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş "MARAL-1" və "MARAL-2" zirehli avtomobilləri tribunaya yaxınlaşdı. Bu hərbi texnikalar Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunur.

Ağır hərbi texnika istehsalında yenilik hesab edilən zirehli transportyor "BTR-82A"nın xüsusiyyətləri onu bütün növ qoşunlarda, həmçinin desant və kəşfiyyat bölmələrində istifadə etməyə imkan verir.

Tribuna önündən Dövlət Sərhəd Xidmətinin hərbi texnikaları keçdi. Çevik hərəkət maşınları, zirehli piyada daşıyan maşınlar, zirehli transportyorlar, mobil müşahidə sistemləri dövlət sərhədlərimizin mühafizəsi üçün təyin olunub.

Çöl şəraitində qərargah və kəşfiyyat orqanlarının fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuş zirehli komanda-qərargah və kəşfiyyat avtomobillərində quraşdırılan və kabinədən idarə olunan "LORENS" yerüstü müşahidə stansiyası qoşunların döyüş düzülüşündə fəaliyyət göstərərək kəşfiyyat məlumatlarının əldə edilməsinə və real vaxt rejimində idarəetmə məntəqələrinə ötürülməsinə imkan yaradır.

"ORBİTER 1K", "ORBİTER 3B", "AEROSTAR BP" pilotsuz uçuş aparatları hava kəşfiyyatının aparılması və taktiki səviyyədə düşmənin canlı qüvvəsinin və yüngül zirehli texnikasının zərərsizləşdirilməsi, müşahidə və kəşfiyyat, artilleriya dəstəyi və xüsusi əməliyyatlarla bağlı qarşıya qoyulmuş vəzifələrin icrası üçün yüksək dəqiqliyi ilə seçilir. Uzun müddət havada qalma qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunan "HERON", orta ölçülü çoxməqsədli "HERMES 900", "HERMES 450", "HAROP" pilotsuz uçuş aparatları da paradda nümayiş etdirildi. Hava məkanında patrul funksiyasını yerinə yetirərək hədəfi aşkar etdikdə "mərmi-təyyarəyə" çevrilərək yer hədəflərini yüksək dəqiqliklə məhv etmək imkanına malik "HAROP" aparatları aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurub.

Zirehli-tank texnikası, özüyeriyən artilleriya qurğuları, ən müasir, modernləşdirilmiş piyadaların döyüş maşınları, dünyada ən döyüşkən tank kimi tanınan "T-90S" tankı, Hava Hücumundan Müdafiə silahları sistemləri, yüksək mobilliyi ilə seçilən "BUK-MB" zenit-raket kompleksi, "S-300 FAVORİT" çoxkanallı universal mobil zenit-raket sistemi, "İldırım" və "Qalxan" hava hücumundan müdafiə kompleksləri, yubiley ərəfəsində Azərbaycan Ordusunun silahlanmasına daxil edilmiş yüksək dəqiqliyə malik qanadlı hava-yer raketi, artilleriya silahları sistemləri, silahlanmaya yeni daxil olmuş avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 152 millimetrlik özüyeriyən artilleriya qurğusu, 300 millimetrlik yaylım atəşli reaktiv sistemləri, raket silahları sistemləri, avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 301 millimetrlik və 624 millimetrlik əməliyyat-taktiki raket kompleksləri də hərbi paradda nümayiş olundu.

Xalqımız əmin ola bilər ki, bu gün paradda nümayiş etdirilən silah sistemləri və hərbi texnikalarla Azərbaycanın hava məkanı düşmənin istifadəsində olan istənilən texnika və silah növlərindən, hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorunub və bundan sonra da qorunacaq.

Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təşkil olunan parada Hərbi Dəniz Qüvvələrinin gəmiləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz Xəzərin Azərbaycan sektorunda dövlətimizin iqtisadi və strateji maraqlarını qorumaqla yanaşı, yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Bunun ardınca Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini "Mi-17" tipli iki helikopter açdı. Helikopterlər Azərbaycan Respublikasının Dövlət bayrağını və xalqımızın ümummilli lideri Heydər Əliyevin portretini Azadlıq meydanı üzərində dalğalandırdı.

Paradda yüngül çoxməqsədli, yüksək manevr qabiliyyətinə malik "BELL-412", dənizdə və su hövzələri üzərində axtarış-xilasetmə tapşırıqlarının yerinə yetirilməsi, həmçinin dəniz desantının su hövzələrinə çıxarılması üçün təyin olunan "Ka-32", çoxfunksiyalı hərbi-nəqliyyat təyinatlı "Mi-24 QRİFİN", şəxsi heyətin və müxtəlif yüklərin daşınması, iriölçülü yüklərin xarici asqılarda nəqli üçün təyin olunan "Mi-17-1V" döyüş-nəqliyyat, eləcə də "LAHAT", "SPAYK NLOS" tipli raketlərlə silahlanmış "Mi-17", habelə "Mi-35" və "Mi-24" helikopterləri müxtəlif düzülüşlərdə hərəkət edərək Azadlıq meydanının üzərindən keçdi.

Helikopterlərdən sonra Bakı səmasına döyüş təyyarələri və qırıcılar daxil oldu, milli şahinlərimiz paytaxt səmasında nümunəvi uçuşları davam etdirdilər.

Təlim-döyüş təyyarəsi uçuş heyətinin səriştələrinin artırılması və idarəolunmayan raket və bombalarla döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin edilən "L-39", yaxın və orta məsafələrdə hava döyüşlərinin aparılması üçün nəzərdə tutulan "MiQ-29", təyyarələrə, yerüstü hədəflərə idarəolunmayan raket, müxtəlif növ bombalar və 30 millimetrlik top ilə həmlə imkanına malik "Su-25" təyyarələri müxtəlif düzülüşlərdə hərəkət edərək yüksək pilotaj fiqurları nümayiş etdirdilər.

Məhz bu paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri "Su-25" hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstərdilər. Onlar paytaxt səmasında üçrəngli bayrağımızın möhtəşəm əksini yaratdılar.

Azərbaycanın Hərbi Hava Qüvvələri hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malikdir. Qırıcı-bombardmançı aviasiya bütün hündürlüklərdə hava hədəflərini məhv etmək, yerləşdiyi məkandan asılı olmayaraq yerüstü obyektlərə və hədəflərə zərbələr endirmək iqtidarındadır. Hücum və döyüş helikopterləri tam qüvvələri ilə Quru Qoşunlarına aviasiya dəstəyi göstərmək və bütün cəbhə boyu düşmənə fasiləsiz zərbə vurmaq gücündədir. Nəqliyyat aviasiyası desant və kəşfiyyat qruplarının düşmənin arxa cəbhəsinə çıxarılması və ehtiyatların təmin edilməsi istiqamətində tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin və helikopterlərinin Bakı səmasında uçuşu xalqımızda düşmən üzərində qəti qələbəyə sarsılmaz inamı daha da möhkəmləndirdi.

1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılış mərasimində ulu öndər Heydər Əliyev demişdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını daim qorumağa, Azərbaycan ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlət başçısının iyunun 25-də imzaladığı sərəncamla 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd "F-16" və 8 ədəd "F-5" tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirdi.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!

***Fotolar AZƏRTAC və Bakı Media Mərkəzinindir***

# Azərbaycan Türkiyə hərbçilərinin paradda iştirakından məmnundur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarı və Türkiyənin müdafiə naziri Nurettin Caniklini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Türkiyədə keçirilən seçkilər nəticəsində Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Türkiyə Prezidentinin rəhbərliyi ilə son illər görülmüş işlərə xalqın verdiyi qiymətin yüksək təzahürüdür. Dövlət başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarın, müdafiə naziri Nurettin Caniklinin və qardaş Türkiyə hərbçilərinin Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirakından məmnunluğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar və müdafiə naziri Nurettin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdılar.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və müdafiə naziri Azərbaycanda keçirilən prezident seçkilərində dövlətimizin başçısını qazandığı qələbə münasibətilə təbrik etdilər və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirak etmələrindən şərəf hissi duyduqlarını bildirdilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlət başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycan və İran xalqlarını birləşdirən tarixi və mədəni əlaqələrdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycanda İran İslam Respublikası Mədəniyyət Günlərinin keçirilməsinin önəmini vurğulayaraq bu tədbirlərin yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev, eyni zamanda, ötən il İranda Azərbaycan Mədəniyyət Günlərinin də çox uğurla keçirildiyini və İran ictimaiyyəti tərəfindən maraqla qarşılandığını dedi. İranın qədim və zəngin mədəniyyətə malik olduğunu vurğulayan dövlət başçısı Azərbaycan ictimaiyyətinin də öz növbəsində İran Mədəniyyət Günlərini səbirsizliklə gözlədiyini qeyd etdi. Prezident İlham Əliyev həm özünün, həm İran Prezidenti Həsən Ruhaninin dedikləri "Azərbaycan və İran xalqlarını birləşdirən tarixi və mədəni əlaqələrimizdir" fikrini məmnunluqla xatırladı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə, o cümlədən mədəni əməkdaşlıq istiqamətində çox uğurla inkişaf edir. Bu münasibətlərin gündəliyində duran bütün məsələlər öz həllini tapıb və bu gün əlaqələrimiz yüksək səviyyədədir. Dövlət başçısı İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehinin ölkəmizə səfərinin əməkdaşlığımızın möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyini dedi.

Mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehi İran Prezidenti Həsən Ruhaninin ən səmimi salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, İran Prezidenti İranla Azərbaycan arasında inkişaf edən əlaqələrin gündən-günə möhkəmlənəcəyinə əminliyini ifadə edib. Qonaq İran İslam Respublikası Mədəniyyət Günlərinin başlanğıcında Azərbaycana səfər etməsindən məmnunluğunu qeyd edərək bu tədbirin yüksək səviyyədə keçiriləcəyinə əminliyini bildirdi. O, eyni zamanda, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlət başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycanın Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına evsahibliyi etməsi böyük önəm daşıyır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Alis Uelsi qəbul edib.

AZƏRTAC xəbər verir ki, xanım Alis Uels Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına Azərbaycanın evsahibliyi etməsi ilə bağlı minnətdarlığını bildirdi və bu tədbirin böyük önəm daşıdığını dedi.

Dövlət başçısı xanım Alis Uelsin bu tədbirdə iştirak etməsindən məmnunluğunu bildirdi.

Xanım Alis Uels bu yaxınlarda qeyd olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi və "Şahdəniz-2" layihəsinin rəsmi açılışı kimi çox tarixi tədbirlərdən az keçmiş Azərbaycana səfər etməsindən məmnunluğunu vurğuladı. O, bu mühüm hadisələrlə bağlı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikası Prezidentinə təbrik məktubları göndərdiyini xatırlayaraq bu münasibətlə öz təbriklərini də çatdırdı.

Dövlət başçısı Amerika Prezidenti Donald Trampın bu iki mühüm hadisə ilə bağlı göndərdiyi məktublara və orada ölkəmiz və ikitərəfli münasibətlərimizlə əlaqədar ifadə etdiyi xoş fikirlərə görə minnətdarlığını bildirdi, bunun əlaqələrimizin strateji önəmini bir daha nümayiş etdirdiyini dedi və qeyd etdi ki, Azərbaycan tərəfi ABŞ Prezidentinin ölkəmizə olan münasibətini yüksək qiymətləndirir. Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanın həyata keçirdiyi nəhəng enerji layihələrinin reallaşmasına ABŞ hökumətinin verdiyi dəstəyin böyük önəm daşıdığını vurğuladı və bildirdi ki, Azərbaycan hər zaman müxtəlif enerji layihələri, o cümlədən böyük əhəmiyyət daşıyan "Cənub qaz dəhlizi" layihəsinin reallaşmasında bu dəstəyi hiss edib.

Dövlət başçısı bildirdi ki, Azərbaycan Əfqanıstan hökumətinə birbaşa və beynəlxalq səylər çərçivəsində dəstək göstərir və eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasına öz töhfəsini verir və bu missiyada Azərbaycan hərbçilərinin sayı artırılıb. Azərbaycan gələcəkdə də öz hərbçilərinin sayını artırmağa hazırdır. Prezident İlham Əliyev daha sonra qeyd etdi ki, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti işə düşdükdən sonra Azərbaycan Əfqanıstana böyük önəm daşıyan logistik dəstəyi təmin edir. Prezident İlham Əliyev bütün bunların Əfqanıstan hökuməti tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısı bunu bir daha nümayiş etdirəcək və Əfqanıstanda vəziyyətin sabitləşdirilməsi işinə böyük töhfə verəcək.

Xanım Alis Uels Azərbaycan Prezidenti ilə görüşün Əfqanıstana dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını dedi. O, Azərbaycanın Əfqanıstana və bu ölkənin xalqına davamlı dəstəyini və eləcə də Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında Azərbaycan hərbçilərinin sayının artırılmasının ABŞ tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

## Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"nin 5.5-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

| | |
|---|---|
| Novruz Məmmədov | - Azərbaycan Respublikasının Baş naziri |
| Valeh Ələsgərov | - Azərbaycan Respublikasının Milli Məclisi Sədrinin müavini |
| Natiq Əmirov | - Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi - şöbə müdiri |
| Samir Şərifov | - Azərbaycan Respublikasının maliyyə naziri |
| Şahin Mustafayev | - Azərbaycan Respublikasının iqtisadiyyat naziri |
| Elman Rüstəmov | - Azərbaycan Respublikası Mərkəzi Bankının sədri |

2. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 73 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 1031; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1545) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## Bakı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhərinin baş planının hazırlanması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin baş planının hazırlanması işinin təşkili üçün nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq hissi duyuram. Bu fürsətdən istifadə edərək dost xalqlarımız arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrindən məmnunluğumuzu bildirirəm.

Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqına daha böyük tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Cabir əl-Mübarək əl-Həməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

# Silahlı Qüvvələrimiz mütəşəkkil hərbi qüvvəyə çevrilib

Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında təntənəli mərasim keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasim açıq elan edildikdən sonra ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Mərasimdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri və müharibə veteranları iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək bildirib ki, xalqımız Azərbaycan Ordusunun yaradılmasının 100-cü ildönümünü yüksək səviyyədə qeyd edir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri 1918-ci ildə yaradılmış Cümhuriyyət Ordusunun varisidir. 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun əsasında Əlahiddə Azərbaycan Korpusunun təşkilinə başlanıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün - 26 iyun tarixi Azərbaycan Ordusu Günü elan edilib. Həmin tarixdən bugünədək Azərbaycan Ordusu parlaq inkişaf yolu keçib.

Nazir vurğulayıb ki, 1918-ci ildə dost və qardaş Türkiyədən gələn hərbi qüvvələr və Əlahiddə Azərbaycan Korpusunun bölmələrindən ibarət olan Qafqaz İslam Ordusunun Azərbaycan torpaqlarını, xüsusilə Bakını işğaldan azad etməsi şanlı tariximizə qızıl hərflərlə həkk olunub. Həmçinin 1920-ci ildə Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünə qarşı yönəlmiş erməni təcavüzünün qarşısının alınmasında böyük nailiyyətlər əldə edib. 1991-ci ildə - xalqımız müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Milli Ordusu yaradılıb və ordu quruculuğu sahəsində mühüm addımlar atılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycanda müasir ordu quruculuğunun əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Qısa müddətdə ordumuz qarşısına qoyulan hər bir vəzifəni yerinə yetirməyə qadir olan mütəşəkkil hərbi qüvvəyə çevrilib. Hazırda Azərbaycan Ordusu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qabaqcıl orduların sırasında layiqli yer tutub. Ali Baş Komandanın qeyd etdiyi kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir.

Qeyd olunub ki, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış torpaqları Ermənistan Respublikası tərəfindən işğal edilib. Dünya birliyi və bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, eləcə də Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və işğalçılıq niyyətindən əl çəkmir.

"Xalqımız, dövlətimiz və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən Ordumuza və onun şəxsi heyətinə göstərilən diqqət və qayğı bir ali məqsədə - torpaqlarımızı erməni işğalçılarından azad edərək respublikamızın ərazi bütövlüyünün bərpasına, regionda sülh və əmin-amanlığın bərqərar olmasına ciddi töhfə verməyə xidmət edir.

Müdafiə Nazirliyi bir çox dövlətlə, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlığını ildən-ilə inkişaf etdirir. Bu gün dövlətimizin qarşısında ciddi təhlükəsizlik məsələlərinin olmasına baxmayaraq, Azərbaycan Ordusu sülhməramlı əməliyyatlarda iştirak edərək beynəlxalq sülhə və təhlükəsizliyə ciddi töhfə verməkdədir", - deyə general-polkovnik Zakir Həsənov vurğulayıb.

Sonra bayram münasibətilə hərbi paradda iştirak edən xarici dövlətlərin yüksək vəzifəli şəxsləri "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif ediliblər.

Tədbir xalq mahnıları, Azərbaycan və xarici bəstəkarların əsərlərinin ifa olunduğu bayram konserti ilə yekunlaşıb.

# *Müdafiə Nazirliyi:* "Ordumuzun Naxçıvan istiqamətində keçirdiyi əks-həmlə əməliyyatı Ermənistanı nokauta salıb"

Naxçıvan istiqamətində ordumuzun həyata keçirdiyi əks-həmlə əməliyyatı Ermənistanı həqiqi mənada nokauta salıb. Ermənistan mətbuatının "Günnüt əməliyyatı"nı növbəti dəfə müzakirəyə çıxarması bunu bir daha sübut edir.

Bunu Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun uğurlu əməliyyat keçirərək 11 min hektar ərazini düşməndən təmizləməsindən sonra Ermənistan media nümayəndələrinin bir qrupunun guya heç bir şey olmamış kimi cəbhənin həmin istiqamətinə səfər etməsi barədə məlumatla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub: "Azərbaycan əsgərinin vurduğu tərs sillədən özünə gələ bilməyən və məğlubiyyəti həzm etmək iqtidarında olmayan Ermənistanın hərbi-siyasi rəhbərliyi xalqının qorxusundan dolayı yollar və müxtəlif uydurmalar hesabına özünə bəraət qazanmağa çalışır. Azərbaycan tərəfinin azad edilmiş ərazilərdən nümayiş etdirdiyi video-foto çəkilişlərə heç bir tutarlı faktla cavab verə bilməyən Ermənistanın məkanı bəlli olmayan, hansısa dağlıq ərazilərə "press-tur"lar təşkil etməkdən başqa çıxış yolu qalmır.

Azərbaycan əsgərinin Naxçıvanda azad etdiyi ərazilərə mülki əhalinin qayıtması, bu yerlərdə həyatın yenidən bərpa edilməsi artıq müzakirə olunmayan danılmaz faktdır".





# Bütün dünya Azərbaycanın hərbi qüdrətini gördü

*Hərbi parad Silahlı Qüvvələrimizin yüksək döyüş hazırlığını bir daha təsdiq etdi*















**Bakıda Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr edilmiş hərbi parad ordumuzun güc və qüdrətinin nümayişinin əyani təzahürü oldu. Bu parad təsdiqlədi ki, Azərbaycan Ordusu istənilən vəzifəni yerinə yetirməyə qadirdir. Bununla bağlı deputatların, ziyalıların və ehtiyatda olan hərbçilərimizin əməkdaşlarımıza və yerli KİV-ə verdikləri rəylərini dərc edirik.**







Deputat **Elman Məmmədov** bildirib ki, hərbi paradla Azərbaycan Ordusu özünün malik olduğu gücü nümayiş etdirdi. Bununla, Azərbaycanın dostlarını sevindirdi, düşmənlərinin bağrını yardı: "Prezident İlham Əliyevin paradda söylədiyi nitq, verdiyi mesajlar bir daha sübut etdi ki, ölkəmiz qısa müddətdə torpaqlarını işğaldan azad edəcək və buna qadirdir. Ordumuzun gücü, qüdrəti, silah-sursat arsenalı, bazası, Azərbaycan əsgərinin mübariz vətənpərvərlik ruhu, döyüş qabiliyyəti onu deməyə əsas verir ki, ordumuz hər an Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad və düşməni darmadağın edə bilər. Prezident bəyan etdi ki, biz ermənilərdən güclüyük. Beynəlxalq hüquq bizim tərəfimizdədir. İqtisadiyyatımız, vətənpərvərliyimiz, daxili sabitliyimiz, bir sözlə, bütün göstəricilərimiz onlardan yüksək səviyyədədir".

Elman Məmmədovun sözlərinə görə, işğalçı tərəf bundan ciddi nəticə çıxartmalı, Azərbaycanın və ordumuzun gücü ilə hesablaşmalıdır: "Bizim hərbi gücümüzü görüb ağlı yerində olan, ayıq başla fikirləşməyi bacaran düşmən və onların havadarları bundan nəticə çıxartmalıdırlar. Əks təqdirdə, Azərbaycan torpaqlarını işğaldan azad etmək üçün özünün hərbi gücünü istifadə etmək məcburiyyətində qalacaq və ərazi bütövlüyünü təmin edəcək. Hərbi parad Azərbaycan vətəndaşlarında, ölkədən kənar yaşayan bütün azərbaycanlılarda çox yüksək ruh yüksəkliyi, mübarizlik, vətənpərvərlik hissi yaratdı. Bununla fəxr edirik, qürur duyuruq və ordumuza inanırıq. Əminik ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini **Aydın Mirzəzadə**nin fikrincə, hərbi parad Azərbaycan Ordusunun hazırkı vəziyyətinin gözəl göstəricisi oldu: "Nümayiş etdirilən müasir silahlar və texnikalar, hərbi təyyarə və helikopterlərin uçuşu, 2016-cı ilin aprelində və bu yaxınlarda Naxçıvanın Günnüt kəndi ətrafındakı əməliyyatlarda iştirak etmiş hərbçilərin parada qatılması Azərbaycanın müstəqilliyinin qarantlarından biri olan çox ciddi dövlət strukturunun - Silahlı Qüvvələrinin uğurla fəaliyyət göstərdiyini bir daha sübut etdi".

Aydın Mirzəzadənin sözlərinə görə, bu gün ordumuzun gücü və peşəkarlığı elə səviyyədədir ki, istənilən an Ermənistanın işğalı altında olan ərazilərimizi azad edə bilər.

Deputat **Zahid Oruc**un sözlərinə görə, Azərbaycan əsgəri istənilən vaxt işğalda olan əraziləri azad etmək iqtidarındadır: "Prezidentin paradda qeyd etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri istər şəxsi heyət baxımından, istər maddi-texniki təchizat baxımından dünyanın güclü orduları sırasındadır. Ordumuzun yaranma tarixi 100 il olsa da, arada 70 ildən çox zaman itirilib, sovetlərin tərkibində olmuşuq. Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ordu quruculuğu başladı. Qısa zamanda nizami əsgəri qüvvə bərpa olundu".

Deputat bildirib ki, ulu öndərin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun güclənməsi prosesi davam edir. Dövlət büdcəsindən daha çox vəsaitin orduya yönəldilməsi, ən müasir silahların alınması, əsgər nizam-intizamının yaradılması uğurlu ordu siyasətinin nəticəsidir. Müharibə aparan ölkənin bu cür güclü ordusunun olması vacibdir. Prezidentin də dediyi kimi, ordumuz qısa müddətdə işğalda olan ərazilərimizi erməni terrorçularından təmizləyəcək. O günə çox az qaldı. Biz də tezliklə Qarabağda hərbi paradımızı keçirəcəyik.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini **Rauf Əliyev** isə qeyd edib ki, Prezident İlham Əliyevin diqqəti, qayğısı və rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu Qafqazın ən güclü ordusuna çevrilib, öz hərbi potensialına görə dünya ölkələri içərisində ilk 50-likdə qərarlaşıb. Onun sözlərinə görə, 2016-cı ilin aprel döyüşlərində əldə olunan misilsiz qələbə, bu ilin may ayında Naxçıvanın Şərur rayonunun Ermənistanla sərhəd bölgəsində aparılmış böyük strateji əhəmiyyət daşıyan hərbi əməliyyatın uğurla başa çatdırılması deməyə əsas verir ki, Azərbaycan Ordusu istənilən vaxt işğal altında olan torpaqlarımızı azad etmək əzmindədir.

Deputat **Elman Nəsirov** bildirib ki, dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətinin banilərinin Azərbaycan Ordusunun yaradılması ilə bağlı atdığı mühüm addıma da diqqəti cəlb edib: "Ali Baş Komandan bildirib ki, Cümhuriyyət qurucuları 100 il öncə Silahlı Qüvvələrin yaradılması ilə bağlı çox mühüm siyasi qərar qəbul ediblər. Biz həmin tarixi hadisənin 100 illiyini qeyd edirik. Eyni zamanda, dövlət başçısı vurğuladı ki, Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisidir. Biz 1991-ci ildə dövlət müstəqilliyini elan etsək də, tam müstəqilliyimiz ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdışı ilə başlanıb. Heydər Əliyev ilk növbədə, ordu quruculuğu məsələlərinə diqqət yetirdi. Müasir Azərbaycan Ordusunun yaradıcısı məhz ulu öndər Heydər Əliyev oldu. Bu gün Azərbaycan Ordusu daha da güclənməkdədir. Prezident çıxışında qeyd etdi ki, dövlət büdcəsinin ən böyük hissəsi məhz bu məqsəd üçün ayrılır. 2003-cü ildən indiyə qədər Azərbaycanın hərbi büdcəsi 15 dəfə artıb. Bu gün Azərbaycan Ordusu dünyada ən güclü ordular sırasındadır".

Elman Nəsirov hərbi paradda Azərbaycan hərbi pilotlarının yüksək uçuş məharətlərini nümayiş etdirməsinə diqqət çəkib. Bildirib ki, Azərbaycan Ordusu bütün döyüş tapşırıqlarını yerinə yetirməyə hazırdır. Ali Baş Komandanın bir əmri kifayətdir ki, ordumuz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs mübarizəyə başlasın. Prezident həmin müqəddəs günün uzaqda olmadığını vurğuladı. Biz fəxr edirik ki, belə qətiyyətli Ali Baş Komandanımız, güclü, qüdrətli ordumuz var.

Keçmiş korpus komandiri, ehtiyatda olan general-leytenant **Yaşar Aydəmirov** deyib ki, hərbi paradda yeni aldığımız müasir silah və zirehli texnikalar, zenit-raket kompleksləri, Azərbaycanın öz istehsalı olan hərbi təyinatlı məhsullar nümayiş etdirildi. Bütün dünya bizim gücümüzü gördü.

Yaşar Aydəmirov qeyd edib ki, hərbi paradda Ali Baş Komandan İlham Əliyevin çıxışı xalqımızda böyük ruh yüksəkliyi yaradıb: "Ali Baş Komandan bəyan etdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır və gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətirilib, hərbi paradda nümayiş etdiriləcək. Cənab Prezident bildirdi ki, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və ordumuz düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir".

Ehtiyatda olan polkovnik **Şair Ramaldanov** isə hərbi paradı Azərbaycan tarixinin ən uğurlu paradı adlandırıb: "İki aya yaxın idi bu parada hazırlıq gedirdi və hamımız möhtəşəm paradı böyük səbirsizliklə gözləyirdik. Deyə bilərəm ki, 100 yaşı tamam olan Azərbaycan Ordusu bu tarixi günü möhtəşəm şəkildə qeyd etdi. Silahlı Qüvvələrimiz öz gücünü bütün dünyaya nümayiş etdirdi. Hamı ordumuzun nələrə sahib olduğunu gördü. Xalqımızın dövlətinə və dövlət başçısına güvəni daha da artdı".

Paradda nümayiş etdirilən silahların düşməndə qorxu yaratdığını söyləyən Ş.Ramaldanov Ali Baş Komandan İlham Əliyevin hərbi paraddakı çıxışına da toxunub: "Prezident İlham Əliyev demişkən, Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək. Çünki bizim güclü ordumuz və inkişaf edən iqtisadiyyatımız var. Ölkə rəhbəri qeyd etdi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq və tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək. Aprel döyüşlərinin Ermənistanın öz ordusu ilə bağlı yaydığı mifi darmadağın etdiyini xatırladan Prezident bu gün hərbçilərimizin ermənilərin ərazimizdə qazdıqları səngərlərdə xidmət göstərdiyini vurğuladı".

Onun sözlərinə görə, Azərbaycan Ordusu istənilən zaman düşməni darmadağın etməyə hazırdır. Ali Baş Komandanın dediyi kimi, müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. İkinci mərhələ başlamalı olsa, ordumuz düşməni darmadağın etməyə qadirdir.

***Səbinə MƏMMƏDOVA, "Azərbaycan"***

# Azərbaycan gəncliyi Ali Baş Komandanın "Hücum" əmrini icra etməyə tam hazırdır

**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi parad göstərdi ki, son illərdə ordumuzun döyüş imkanları əhəmiyyətli dərəcədə artıb. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə qoşunlarının arsenalında ən modern silah və texnika yer alıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin paraddakı çıxışı isə ictimaiyyətin dərin coşqusu ilə qarşılanır.**

**Ölkə gəncləri də bildirirlər ki, həm paradda nümayiş olunan hərbi gücümüz, həm də cənab Prezidentin çıxışı hər birimizdə tezliklə işğal altında olan ərazilərimizdə Azərbaycan bayrağının dalğalanacağı inamını daha da artırdı.**





## İlham Əliyev növbəti hərbi paradı Xankəndidə qəbul edəcək

**Amil CAVADOV,**
*Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin Şura üzvü:*

- Möhtəşəm hərbi parad Azərbaycan Ordusunun yenilməzliyinin, qüdrətinin nümayişi idi. Dörd min nəfərədək şəxsi heyətin eyni anda tribuna önündən keçməsi, 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, pilotsuz uçuş aparatları kimi müxtəlif növ yeni silah və texnikaların nümayişini həyəcansız izləmək mümkün deyildi. Helikopterlərin və qırıcıların Bakı səmasında uçuşları isə son dərəcə heyrətamiz idi. Paradı izləyən hər bir azərbaycanlı gənc kimi mən də hədsiz qürur hissi keçirdim.

Ümumiyyətlə, paradlar təşkil etmək, ordu və texnikanın nümayişi ancaq güclü dövlətlərdə rast gəlinən haldır. Bu, bir növ, həmin dövlətin gücünü, ordusunun potensialını göstərir. Biz bu paradla Azərbaycan Silahlı Qüvvələrinin potensialını gördük və ordumuzun gücünə inamımız daha da artdı. Amma bu da bəllidir ki, Azərbaycan Ordusu bu səviyyəyə elə-belə çatmamışdır. 25 ildir aparılan ordu quruculuğunun nəticəsidir ki, Azərbaycanın paytaxtında keçirilən hərbi parad az qala, bütün dünyaya səs salıb. Azərbaycan Silahlı Qüvvələrinin gücü, əsgər və zabitlərimizin rəşadəti haqqında region dövlətlərində, həmçinin dünya ictimaiyyəti arasında formalaşan yüksək fikir ordumuzun hərbi əməliyyatlar zamanı qazandığı uğurlardan başlayıb. Möhtəşəm parad bir növ, bu əməliyyatların təsdiqi idi.

Təkcə son iki ildə təxribatın qarşısının alınması zamanı Azərbaycanın əsgər və zabitlərinin əks-həmlə ilə düşmənə necə sarsıdıcı zərbə endirməsi haqqında xəbərlər elbəel gəzdi, necə deyərlər, dostları sevindirib rəqibləri məyus etdi. Təsadüfi deyil ki, 2016-cı ilin aprel döyüşləri Azərbaycan əsgərinin şanlı qələbəsi kimi tarixə həkk olunub. Bu qələbə zamanı əsgər və zabitlərimiz əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərməklə nəyə qadir olduqlarını sübut etdilər. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi və dərhal yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini azad etdi. Konkret olaraq Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazisi ermənilərdən təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir.

Möhtəşəm paradda Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə, Ağdərə dağlarında Azərbaycan bayrağı dalğalanır. Strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Azərbaycan Ordusu bununla, bir daha göstərdi ki, xalqımız bu işğalla barışmayacaq. Bu qələbə sübut etdi ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif imiş. Ordumuz bu mifi darmadağın etdi və onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xətti bir neçə gün ərzində yarıldı, məhv edildi. Bu baxımdan aprel döyüşləri tariximizin şanlı səhifəsidir.

Aprel savaşı həm də qələbələrin carçısı oldu. Bundan sonra hətta düşmən tərəfi də ordumuzun güclü olduğunu etiraf etmək məcburiyyətində qaldı. Çox keçmədən 2018-ci ildə - bu bayram ərəfəsində Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Bu uğurlu əməliyyatlardan sonra paytaxtda belə möhtəşəm bir paradın keçirilməsi son dərəcə qürurvericidir.

Əminliklə deyə bilərik ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dövlətimizin qüdrətinin nümunəsi, xalqımızın iftixar yeridir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, maddi-texniki bazasının müasir standartlar səviyyəsinə çatdırılması sahəsində çox mühüm işlər görülüb və yenə də görülür. Bununla yanaşı, ordumuz yeni texniki imkanlar əldə etməklə müasir, dünyada təcrübədən çıxmış müharibə və döyüş taktikalarını da mənimsəyir. Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Hərbi parad zamanı biz bir daha bunun şahidi olduq.

Artıq sübut olunub ki, Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz.

Sonuncu parad bir daha göstərdi ki, peşəkar ordusu olan dövlətin müstəqilliyi əbədidir və bu ordunun gücü onun xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Onu da qeyd edək ki, ilk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyətinin iştirakı 100 il əvvəl olduğu kimi, bu gün də Türkiyə ilə Azərbaycanın sarsılmaz dostluğunun və qardaşlığının növbəti göstəricisi kimi hər birimizi duyğulandırdı və bir daha ordumuzla hədsiz qürur duyduq.

## Şəmşir yurdunda bayrağımızın dalğalanacağı gün uzaqda deyil

**Həbib MİSİROV,**
*"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İB-nin sədr müavini:*

- İyunun 26-da Milli Ordumuzun yaranmasının 100 illiyi münasibəti ilə Bakının baş meydanından dünyaya yayımlanan Azərbaycan Silahlı Qüvvələrinin hərbi paradı bizi sonsuz dərəcədə qürurlandırdı. Bu parad ordumuzun, hərbi texnikamızın güc nümayişi idi və ona görə də düşmənlərimizi açıq-aşkar təşvişə saldı, dostlarımızı isə sevindirdi.

Azərbaycan Ordusunun formalaşması və bugünkü yüksək səviyyəyə çatması gözümüzün önündə baş verib. Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. O dövrdə vahid komandanlığın, mövcud silahlı dəstələrdə, könüllü özünümüdafiə batalyonlarında nizam-intizamın olmaması, hərbi qaydaqanunlara əməl edilməməsi nəticədə torpaqlarımızın itirilməsinə gətirib çıxardı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilmədilər. Elə mənim doğma yurdum Kəlbəcər də belə xəyanətlərin qurbanı oldu.

Ümummilli lider Heydər Əliyevin son dərəcə mürəkkəb ictimai-siyasi şəraitdə Azərbaycan hakimiyyətinə gəlişi ölkə həyatının bütün sahələrində olduğu kimi, orduda da xaosa, özbaşınalığa son qoydu. Ulu öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutdu və Milli Ordu quruculuğu ən ümdə məsələ kimi diqqətdə saxlanıldı. Bu ənənə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən də uğurla davam etdirildi. Artıq hər kəsə bəllidir ki, Azərbaycanda aparılan ordu quruculuğu bu gün öz müsbət nəticəsini verir.

Bu il yüz illiyini qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən güclü 50 ordusu sırasında olması heç də təsadüfi deyil. Eyni zamanda, Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malik ölkə statusunu qazanıb. Cənubi Qafqazda qüdrətli ordunun Azərbaycana məxsus olması həm region, həm də dünya dövlətləri tərəfindən etiraf olunur.

Ordumuza mütəmadi olaraq alınan müasir texnika və silahlar döyüş zamanı qazanılan qələbələrdə mühüm rol oynayır. Amma sonuncu - möhtəşəm paradda Azərbaycanın hansı hərbi texnikaya sahib olduğunun canlı şahidi olduq. Prezident, Ali Baş Komandan İlham Əliyevin paraddakı çıxışını izləyərkən dövlət başçısının ordu quruculuğuna nə qədər önəm verdiyinin bir daha şahidi olduq. Son illər ərzində ordumuza ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, gözətçi və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarca döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri vardır. Bütün bunlar hərbi gücümüzü artırır. Elə ona görədir ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında öncül ölkələrdən biridir.

Paradda diqqətimizi çəkən digər maraqlı məqam Azərbaycanda istehsal olunan hərbi texnikanın və müasir silahların orada yer alması idi. Üzərində pilotsuz uçuş aparatları əleyhinə qurğu yerləşdirilmiş zirehli avtomobillər, mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş "MARAL-1" və "MARAL-2" zirehli avtomobilləri paradda xüsusi diqqət çəkdi. Bu hərbi texnikalar Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunub. Əlbəttə, buna şahidlik etmək çox xoş idi. Bu o deməkdir ki, Azərbaycan getdikcə güclənir, davamlı inkişaf edir. Ölkə iqtisadiyyatının sürətli inkişafı birbaşa ordunun müsirləşməsində və gücündə də özünü göstərir. Odur ki, bu gün Azərbaycan yeni hərbi texnika almaqla yanaşı, həm də özü istehsal edir.

Sonsuz qürur və iftixar hissi ilə şahidi olduğumuz hərbi parad, nümayiş etdirilən nizami ordu və sahib olduğumuz müasir hərbi texnika bir daha sübut etdi ki, bu gün Azərbaycan Silahlı Qüvvələri müasir dünya standartlarına cavab verən modern orduya malikdir və Azərbaycanın torpaqlarına göz dikən düşməni hər an yerində oturtmağa hazırdır. Azərbaycan əsgəri bunu 2016-cı ilin aprel döyüşlərində, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır.

Ona görə də qətiyyətlə deyə bilərik ki, belə nizami orduya, müasir texnikaya sahib olan bir dövlətin, xalqın torpaqlarında düşmən gəzə bilməz. Dövlətimizin ildən-ilə artan iqtisadi qüdrəti ordumuzun gücünü də artırıb. İnanırıq ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ata-baba torpaqlarımızı mənfur düşməndən azad edəcəyik, qələbə sevincini belə möhtəşəm paradla Şuşada Azərbaycanın üçrəngli bayrağı altında qeyd edəcəyik.

Təbii ki, bütün bunlar qətiyyətlə deməyə imkan verir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal edilmiş tarixi torpaqlarını düşmən tapdağından azad edəcək. Bunun üçün Azərbaycanın bu gün güclü ordusu, hərtərəfli iqtisadiyyatı və qətiyyətli lideri vardır.

Biz gənclər Ali Baş Komandanın "Qələbəyə doğru irəli" əmrini icra etməyə tam hazırıq. Əminik ki, qədim obamız Kəlbəcərdə - Şəmşir yurdunda Azərbaycan bayrağının dalğalanacağı gün də uzaqda deyil.

***Elnur HADIYEV, "Azərbaycan"***

# Hərbi parad dünya gündəmində

## Bakıda keçirilən möhtəşəm hərbi yürüş türk mediasının da diqqət mərkəzində olub

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən parad ölkəmizin müzəffər silahlı birləşmələrə malik olduğunu bir daha nümayiş etdirdi.**

Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin şəxsi heyətinin, modernləşdirilmiş hərbi texnikanın, döyüş vertolyotlarının, təyyarələrin iştirak etdiyi hərbi parad hər bir azərbaycanlıda qürur hissi doğurdu. Çünki bu, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətindən, onun yenilməzliyindən, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən an zəfər yürüşünə hazır olmasından xəbər verən möhtəşəm tədbir idi.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin birlikdə 4000 nəfərədək şəxsi heyəti iştirak edib.

Bakıdakı möhtəşəm hərbi parad dünya, o cümlədən qardaş Türkiyə mediasında da geniş şəkildə işıqlandırılıb. Onlardan bəzilərini diqqətə çatdırırıq.

Qardaş ölkənin "TRTHaber" kanalı "Azerbaycan ordusunun 100. kuruluş yıldönümü kutlanıyor" və "Türk Yıldızları ve SOLOTÜRK Bakü semalarında" başlıqlı xəbərlər hazırlayıb. Qeyd olunub ki, 26 iyun tarixində dünya Bakıda möhtəşəm bir paradın şahidi oldu. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, yubiley tədbiri ilə əlaqədar Bakıya gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi parada baxıblar.

"CNNTürk" televiziya kanalı da oxuculara paradı "Azerbaycan ordusunun 100 yılı kutlanıyor" başlıqlı xəbərlə çatdırıb. Bildirilib ki, təntənəli mərasimdə 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar, eləcə də hərbi gəmi və katerlər nümayiş olunub. Eyni zamanda qeyd edilib ki, Azərbaycan müasir ordusu ilə qürur duymalıdır.

Türkiyə hərbçilərinin Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirakını diqqətə çatdıran kanalda iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində bundan sonra da uğurla inkişaf edəcəyi vurğulanıb.

Türkiyənin "TGRTHaber" kanalı "Solo Türk" ve "Türk Yıldızları" Azerbaycan'da" başlıqlı xəbəri tamaşaçılara çatdırıb. Vurğulanıb ki, Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" aviasiya qrupuna daxil olan 8 ədəd F-5 tipli təyyarələri Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən bayram tədbirlərində iştirak edib. Möhtəşəm hərbi paraddan sonra "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd F-16 və 8 ədəd F-5 tipli təyyarələr Bakı buxtası üzərində nümunəvi uçuşlar keçiriblər.

Qardaş ölkənin ən çox oxunan qəzetlərindən olan "Hürriyet" isə "Tarihte bir ilk! Milli füze SOM-B1 Azerbaycan Ordusu'nun geçit töreninde" başlıqlı xəbəri oxucularına çatdırıb. Bildirilib ki, müharibə şəraitində olan Azərbaycan ordu quruculuğu sahəsində çox inkişaf edib. Nümayiş edilən hərbi avtomobillər kəşfiyyat, komanda-qərargah, müxtəlif silah növləri ilə təchiz edilmiş xüsusi çevik qüvvələrin xidmətində olmaqla bir neçə konfiqurasiyada mövcuddur. Vurğulanıb ki, nümayiş etdirilən silah sistemləri və hərbi texnikalarla Azərbaycanın hava məkanı düşmənin istifadəsində olan istənilən texnika və silah növlərindən, hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorunub.

"Akşam" qəzeti isə "Azerbaycan SOM aldı, Rus uçağında kullanacak" başlıqlı xəbəri manşetdən verib. Yazılıb ki, Azadlıq meydanında təntənəli hərbi parad Azərbaycan Ordusunun döyüş imkanlarının əhəmiyyətli dərəcədə yüksəldiyini ortaya qoydu. Xaricdən alınan müasir silah növlərinin nümayişi ilə yanaşı, bu parad həm də Azərbaycanın müdafiə sənayesinin son illərdə böyük inkişaf yolu keçdiyini göstərdi.

"Milliyət" qəzeti isə "Milli füze SOM-B1 Azerbaycan Ordusu'nun geçit töreninde" başlıqlı xəbərə yer ayırıb. Bakıdakı parad haqqında məlumat verən nəşr yazıb ki, burada nümayiş etdirilən hərbi texnika göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi və ən müasir döyüş sistemlərinə malik olan orduya çevrilməsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Paradda Azərbaycanın hərbi gücünün, ordusunun döyüş və qələbə əzminin əyani şahidi olduq.

"Sabah" qəzetinin "Milli füze SOM-B1 Azerbaycan Ordusu'nun geçit töreninde" başlıqlı xəbərində qeyd olunub ki, Türkiyə müdafiə sənayesinin ən məşhur şirkətlərindən ROKETSAN-ın istehsal etdiyi SOM-B1, Azərbaycan Ordusunun yaranmasının 100-cü ildönümü münasibətilə təşkil edilən hərbi paradda nümayiş olundu.

"Star" qəzetinin də "Milli füze SOM-B1 Azerbaycan'ın geçit töreninde görüldü" başlıqlı xəbərində qeyd olunub ki, parad hər bir azərbaycanlının öz ordusunun qüdrətinə olan inamını, qürur və fəxarətini qat-qat artırdı.

"Anadolu", "www.haberler.com", "www.haberlerdenevar.com", "sondakikahaberleri.info.tr", "www.aydinpost.com", "www.medyapress.com.tr", "www.yenihaberden.com", "karar.com", "mutlakhaber.net", "karar.com" və s. agentliklər də dərc etdikləri xəbərlərdə Bakı paradı haqqında məlumat verib, müasir hərbi texnika ilə təchiz edilən, gündən-günə modernləşən, yüksək nizam-intizama malik Azərbaycan Silahlı Qüvvələrinin düşmənin istənilən təhdidinə cavab verməyə və torpaqlarını işğaldan azad etməyə qadir və hazır olduğunu diqqətə çatdırıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




## Rusiya mətbuatı Azərbaycanın hərbi potensialını qüdrətli hesab edir

**İyunun 26-da Bakıda keçirilən hərbi parada Rusiya KİV-i də maraq göstərib. TASS agentliyinin xəbərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, onun ölkəsi hərbi gücünü möhkəmlətməkdə davam edəcək. 2013-cü ildən Azərbaycanın hərbi xərcləri 15 dəfə artırılıb.**

Hazırda Azərbaycanda fəaliyyət göstərən 20-dən çox hərbi zavodda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Eyni zamanda, son illər ərzində ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri, hərbi nəqliyyat, helikopterlər, ən müasir kəşfiyyat və pilotsuz döyüş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri var.

İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz Silahlı Qüvvələrini gücləndirir, çünki beynəlxalq hüquq işləmir. Əgər o, işləsəydi, biz çoxdan öz ərazilərimizi azad edərdik. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bundan sonra da Azərbaycan ən müasir silah və hərbi texnika alacaq. Bunun üçün bizim böyük maliyyə resurslarımız və güclü əlaqələrimiz var.

Agentlik qeyd edir ki, hərbi parad zamanı 240-dan çox texnika, 70-dən artıq uçuş vasitəsi, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri və digər sistemlər nümayiş olunub.

"Kavkazskiy uzel" saytının xəbərinə görə, Bakıda keçirilmiş parad Azərbaycanın Qarabağ uğrunda müharibəyə hazırlığını nümayiş etdirib. Amerika helikopterləri, qanadlı raketlər və digər silahlar Azərbaycan Ordusunun düşmən üzərində üstünlüyü barədə xəbərləri təsdiq edib. Ekspertlər hesab edirlər ki, Azərbaycan torpaqlarını azad etmək üçün genişmiqyaslı hərbi döyüşlərə hazırdır.

Bakıdakı təntənəli hərbi paradda 4 minə yaxın adam - Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları, habelə Türkiyə Silahlı Qüvvələrinin parad heyəti iştirak edib. Parad keçidinə 2016-cı ilin aprel döyüşlərində və cari ilin mayında Naxçıvan əməliyyatında iştirak etmiş hərbi hissələr başlamışdır. Keçid başa çatdıqdan sonra ən müasir silah və texnika nümayiş etdirilib.

REGNUM agentliyi Prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə təntənəli hərbi paraddan çıxışından sitat gətirir: "Dünyada baş verən proseslər göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər o, işləsəydi, Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrindən əsas amil kimi çıxış edir... Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində biz dünyanın ən müasir silahlarını əldə etmişdik və bu proses davam etdiriləcəkdir..."

İlham Əliyev vəd etmişdir ki, gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Agentliyin xəbərində bildirilir ki, Bakıdakı paradda 240-dan çox texnika, 70-dən artıq uçuş vasitəsi, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər və pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş etdirilmişdir. Paradda həmçinin Türkiyə Hərbi Hava Quvvələrinin F-16 və F-5 təyyarələri iştirak edib.

"Mir24" agentliyi xəbər verib ki, Bakıda Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş Azadlıq meydanında keçirilmiş hərbi paradda 240-dan çox texnika nümayiş etdirilmişdir. Paradın ən baxımlı hissəsi aviaşou olub. Hərbi aslar yüksək pilotaj fiqurları nümayiş etdirmişlər və Bakı sakinləri, habelə paytaxtın qonaqları tərəfindən alqışlarla qarşılanmışlar. Paradda həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

"Eadaily.com/ru" saytının xəbərinə görə, Bakının mərkəzində - Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunan təntənəli hərbi paradda Prezident İlham Əliyev, dövlətin və hökumətin rəsmi nümayəndələri, xarici ölkələrin səfirləri və hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları və xarici nümayəndə heyətlərinin üzvləri, veteranlar və ictimaiyyət nümayəndələri olub. Müdafiə Nazirliyinin orkestri Azərbaycan Respublikasının Dövlət himnini səsləndirib. Hərbi paradda Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti və Xüsusi Dövlət Mühafizə Xidmətinin, habelə Türkiyə Silahlı Qüvvələrinin parad heyətini təmsil edən 4 minə yaxın adam iştirak edib.

Təntənəli paradda zirehli avtomobillər və transportyorlar, pilotsuz uçuş aparatları, tanklar, özüyeriyən artilleriya qurğuları, zenit-raket kompleksləri, hava hücumundan müdafiə sistemləri nümayiş etdirilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Misir mətbuatı Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü barədə yazır

Misirin nüfuzlu "Əl-Əhram", "Əl-Cumhuriyyə" qəzetlərində və "Asiya Əl-Youm" xəbərlər agentliyində Azərbaycanın bu ölkədəki səfiri Tural Rzayevin Azərbaycanın Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü ilə bağlı məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə səfir 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik respublika olduğunu, cəmi iki ilə yaxın yaşamış bu dövlətin zəngin dövlət quruculuğu təcrübəsi ilə tariximizdə silinməz izlər qoyduğunu, bu qısa zaman ərzində Milli Ordunun təsis olunduğunu vurğulayıb.

Qeyd olunur ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə dövlət quruculuğu, o cümlədən ordu quruculuğunda yeni mərhələ başlanılıb. Müasir Azərbaycan Ordusu bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında regionun ən güclü ordusuna çevrilib.

Müəllif həmçinin hazırda Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə və qorumağa qadir olduğunu və aprel döyüşlərindəki uğurlarını oxucuların diqqətinə çatdırır. Məqalədə ordumuzun büdcəsinin Ermənistanın büdcəsindən iki dəfə çox olması faktına da xüsusi yer verilir.

https://www.gomhuriaonline.com/Story/1055976/
www.asiaelyoum.com/76112/2018/06/26/100

## Bakıda keçirilmiş hərbi parad İordaniyanın Dövlət Xəbərlər Agentliyi tərəfindən geniş işıqlandırılıb

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilmiş hərbi parad İordaniyanın "Petra" Dövlət Xəbərlər Agentliyi tərəfindən geniş işıqlandırılıb.

Azərbaycanın İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, agentliyin yaydığı məqalədə paytaxt Bakının mərkəzində əzəmətli hərbi paradın keçirildiyindən bəhs edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin paradda olduğu diqqətə çatdırılır. Qeyd edilir ki, hərbi paradda Azərbaycanın Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib. Mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

1918-ci il iyunun 26-da Azərbaycanda ilk nizami ordu quruculuğuna start verildiyini bildirən müəllif Azərbaycan Silahlı Qüvvələrinin hərbi imkanlarının son illər ərzində artdığını diqqətə çatdırır.

Məqalədə Azərbaycanda hərbi və müdafiə sənayesinin inkişafından bəhs edilir, əsgərlərimizin beynəlxalq əməliyyatlarda, məsələn, Əfqanıstandakı əməliyyatlarda iştirak etdiyi vurğulanır.

Yazıda Dağlıq Qarabağ münaqişəsinə də toxunulur, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarının nəticəsiz qaldığı vurğulanır.

Məqalədə cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və minaatanlardan da istifadə etməklə Ermənistan silahlı qüvvələrinin atəşkəsi daim pozduğu diqqətə çatdırılır.

BAKU MEDIA CENTER

HƏRBİ PARADI TƏQDİM EDİR

# Unudulmaz anlar









































# Bakıda İsveçrənin milli bayramı qeyd edilib

İsveçrənin Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Konfederasiyasının yaranması günü münasibətilə iyunun 27-də rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və İsveçrənin Dövlət himnləri səsləndirilib.

İsveçrənin Azərbaycandakı səfiri Filip Ştalder qəbulda çıxış edərək ölkəsinin müstəqilliyinin tarixindən danışıb. O, bu il Azərbaycanın müstəqilliyinin 100 illiyini qeyd etdiyini bildirib və bu münasibətlə xaldımızı təbrik edib. Səfir ikitərəfli münasibətlərdən danışaraq qeyd edib ki, hər iki ölkənin prezidentlərinin görüşü əlaqələrimizin inkişafına töhfə verir.

Xarici işlər nazirinin müavini Ramiz Həsənov tədbirdə çıxış edərək əlamətdar bayram münasibətilə İsveçrə xalqını Azərbaycan hökuməti adından təbrik edib. O, ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini bildirib, bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, səfirlər, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.





# Heydər Əliyev Mərkəzində Gürcüstan rəssamlarının sərgisi açılıb

İyunun 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan rəssamlarının əsərlərindən ibarət "Cari vəziyyət" adlı sərgi açılıb.



AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bu sərginin Gürcüstan Mədəniyyət Nazirliyi və Gürcüstan Milli Muzeyi ilə birgə əməkdaşlıq çərçivəsində ərsəyə gəldiyini bildirib. Diqqətə çatdırıb ki, sərgi ötən əsrin 80-90-cı illərində Gürcüstan təsviri incəsənətinin inkişafına töhfə vermiş 25 rəssamın yaradıcılığı ilə tanışlıq imkanı yaradır. Layihənin reallaşmasında əməyi olan hər kəsə təşəkkürünü bildirən Anar Ələkbərov sərginin bəyəniləcəyinə və xoş təəssüratlar yaradacağına ümidvar olduğunu deyib.

Sərginin kuratoru Çarlz Merevezer çıxışında ilk növbədə Heydər Əliyev Fonduna və Heydər Əliyev Mərkəzinə dərin minnətdarlığını bildirib. "Sərginin əsas məqsədi Azərbaycan ictimaiyyətini Gürcüstan incəsənətinə aid məqamlarla tanış etməkdir. Ümumiyyətlə, Azərbaycan və Gürcüstan regionun mühüm dövlətləridir. Onların arasındakı çox sıx münasibətlər həm də incəsənətin təşviqinə öz töhfəsini verir", - deyən Çarlz Merevezer iki il yarım Gürcüstanda yaşamasından, bu ölkənin incəsənətini öyrənməsindən danışıb. Qeyd edib ki, Heydər Əliyev Mərkəzində təşkil edilən sərgidəki nümunələr sırasında həm fərdi, həm də dövlət kolleksiyasına aid əsərlər yer alıb.

Sərgidə nümayiş olunan əsərlərin 1985-ci ildən sonra Gürcüstanda yaşanan dəyişiklikləri əks etdirdiyini diqqətə çatdıran Çarlz Merevezer deyib: "Bu əsərləri Nyu York, London və Asiya regionuna məxsus incəsənətlə müqayisə etsək, 1980-1990-cı illərə aid olan və sonrakı dövrləri əhatə edən incəsənətin xüsusi məna kəsb etdiyini görərik. Sərginin digər bölümündə isə 2000-2005-ci illərə aid əsərlər də var ki, o vaxt Gürcüstan ötən əsrin 90-cı illəri ilə müqayisədə daha ağır dövrünü yaşayırdı. Biz incəsənətdə genişmiqyaslı dəyişikliklərin şahidi olacağıq".



Sərginin koordinatoru və Gürcüstan Milli Muzeyinin kuratoru Lika Mamataşvili Gürcüstanın Mədəniyyət Nazirliyi və Milli Muzeyi adından Heydər Əliyev Mərkəzinə təşəkkür edib.

Tədbirdə çıxış edən rəssamlar burada əsərlərinin sərgilənməsindən şərəf duyduqlarını bildirərək bu sərginin Gürcüstan və Azərbaycan incəsənət xadimlərini bir araya gətirdiyini vurğulayıblar. Qeyd olunub ki, 70-ci illərdə Gürcüstan Rəssamlıq Məktəbində azərbaycanlı gənclər də təhsil alıblar və onların gürcüstanlı həmkarları ilə gözəl münasibətləri olub. Azərbaycanlı rəssamlar incə zövqlü əsərlər yaradırlar.

Sərgidə nümayiş etdirilən fotoların müəllifi Quram Tşibaxaşvili sevimli şəhəri Bakıya gəlməsindən və burada sərgi təşkil edilməsindən çox şad olduğunu deyib.

Azərbaycan Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov Heydər Əliyev Mərkəzində təşkil edilən bu sərgini ölkənin incəsənət həyatında böyük hadisə kimi dəyərləndirib. O, gürcü rəssamlarının əsərlərini yüksək qiymətləndirib və bu yaxınlarda Tbilisidə keçirilən festivaldan söz açıb.

Qeyd edək ki, "Cari vəziyyət" sərgisinin ekspozisiyasında Vaxo Buqadze, Levan Çoqoşvili, Malxaz Datukişvili, Giya Edzgveradze, Mişa Qoqriçiani, Mamuka Caparidze, Temo Cavaxişvili, Kote Cinçaradze, Karlo Kaçarava, Keti Kapanadze, Uşanqi Xumaraşvili, Luka Lasareişvili, Maya Naveriani, Koka Ramişvili, Lia Şvelidze, Murtaz Şvelidze, Kote Sulaberidze, Oleq Timçenko, Mamuka Tsetsxladze, Maya Tsetsxladze, Niko Tsetsxladze, Quram Tsibaxaşvili, Teona Çaparidze, İliko Zautaşvili və Daniel Spehrin əsərləri təqdim olunur.

1970-ci illərin sonunda başlayan və 2000-ci ilədək davam edən dövr Gürcüstanın müasir bədii və incəsənət istiqamətinin yüksəlişi ilə yadda qalıb. Əhəmiyyətli olmasına baxmayaraq, Gürcüstan incəsənətinin bu dövrü az tanınmış və kifayət qədər tədqiq edilməyib.

Sərgi avqustun 26-dək davam edəcək.

# *Etibar NƏCƏFOV:* "Azərbaycanda mükəmməl dövlət-din münasibətləri mövcuddur"




İyunun 25-də Cenevrədə BMT-nin qərargahında İordaniya Haşimilər Krallığının Şahzadəsi Əl-Həsən bin Təlalın himayədarlığı ilə "Dinlər, məsləklər və/və ya digər dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqlarının möhkəmləndirilməsi üçün güclərin birləşdirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Müxtəlif dinlərə və mədəniyyətlərə mənsub olan xalqlar arasında birgəyaşayışın və əməkdaşlığın təbliğ olunmasına, inklüziv cəmiyyət ideyasının təşviq və təbliğinə həsr olunan konfransda bir sıra ölkələrin yüksək rütbəli dövlət xadimləri, alimlər, dinlərarası və mədəniyyətlərarası dialoqu təbliğ edən beynəlxalq mərkəzlərin rəhbərləri, müsəlman, xristian, yəhudi və digər dini icmaların rəhbərləri, eləcə də etnik və dini məsələlər üzrə beynəlxalq təşkilatların xüsusi məruzəçiləri iştirak edirdilər.

AZƏRTAC xəbər verir ki, konfransda ölkəmizi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. O, "Bərabər vətəndaşlıq hüquqları: yeni paradiqmaya tərəf irəliləyərək" adlı sessiyada "Bərabər və inklüziv vətəndaşlıq hüquqlarının Azərbaycan modeli" mövzusunda çıxış edib.

Etibar Nəcəfov çıxışında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla aparılan multikulturalizm siyasətinin mühüm təzahürlərindən bəhs edib və ölkəmizdə bunun bariz nümunəsi sayılan dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasından söhbət açıb. O, Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının əsas göstəriciləri sırasında ölkəmizdə dini etiqad azadlığının təmin edilməsini, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasını, dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin, o cümlədən maliyyə dəstəyinin göstərilməsini, həmçinin Azərbaycanda dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri əsasında qurulmasını xüsusi qeyd edib.

Konfransın sonunda iştirakçılar tərəfindən "Bərabər vətəndaşlıq hüquqlarının dəstəklənməsi məqsədilə dünya miqyasında daha böyük mənəvi konvergensiyaya tərəf irəliləyərək" adlı yekun bəyannamə qəbul edilib.

Azərbaycan tərəfinin təşəbbüsü ilə bəyannamədə 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsasını qoyduğu, dünyada mədəniyyətlərarası dialoqun təbliğ və təşviq olunmasına yönələn "Bakı Prosesi"nə dair məlumat da əksini tapıb.

# "Sərhəd" hərbi-idman oyunlarının final mərhələsinin açılış mərasimi keçirildi




2018-cı ilin iyun ayının 26-da Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsində "Sərhəd" hərbi-idman oyunlarının final mərhələsinin təntənəli açılış mərasimi keçirilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə təsadüf edən tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin dövlət sərhədlərinin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını böyük iftixar hissi ilə qeyd etmişlər.

Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə tədbirlər planı əsasında hər il ənənəvi olaraq keçirilən "Sərhəd" hərbi-idman oyunlarının gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyə olunmasında, sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynadığı xüsusi vurğulanmışdır.

"Sərhəd" hərbi-idman oyunlarına respublikamızın 34 sərhədyanı və digər rayonlarından 178 məktəbin 890 nəfər şagirdi qatılmış və gərgin mübarizə şəraitində keçən oyunların zona yarışlarının qalibi olmuş 10 komanda final mərhələsinə vəsiqə qazanmışdır.

Oyunların final mərhələsində Naxçıvan MR Babək rayonunun Nehrəm kəndinin 2 №-li tam orta məktəbinin "Babək", Beyləqan rayonu Araz qəsəbəsinin 1 №-li tam orta məktəbinin "Araz", Cəlilabad rayonu Ləkin kənd tam orta məktəbinin "Ləkin", Lənkəran rayonu Haftoni kənd tam orta məktəbinin "Xəzər", Qəbələ rayonu Vəndam kənd tam orta məktəbinin "Vəndam-1", Zaqatala rayonu Yuxarı Çardaxlar kənd tam orta məktəbinin "Sərhədçi", Yevlax rayonu 5 №-li tam orta məktəbin "Çeviklər", Qazax rayonu 1-ci Şıxlı kənd tam orta məktəbin "Dəli Kür", Qusar rayonu Yuxarı Zeyxur tam orta məktəbinin "Zeyxur" və Xəzər rayonu 117 №-li tam orta məktəbin "Xəzər" komandaları iştirak edir.

"Sərhəd" hərbi-idman oyunlarının final mərhələsində məktəblilər "Sıra hazırlığı", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitələrinə baxışın təşkili", "Avtomatın sökülməsi və yığılması", "Sərhəd pozucusunun yaxalanması və onun təxliyəsi", "TOZ-8 tüfəngindən hədəfə atəş açmaq", "Maskalanma", "Yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilərək təxliyə olunması" və "Ləpirçilik" mərhələlərində öz bilik və bacarıqlarını nümayiş etdirəcəklər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olacaq, Lənkəran və Astara rayonlarında onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil olunacaq, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçiriləcəkdir.

"Sərhəd" hərbi-idman oyunları 3 iyul 2018-ci il tarixdə başa çatacaqdır.

*"Azərbaycan"*

# Türk şahinlərinin Bakı səmasında uçuşları xalqlarımızın qardaşlığının növbəti göstəricisidir






Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" aviasiya qrupuna daxil olan 8 ədəd F-5 tipli təyyarələri Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən bayram tədbirlərində iştirak edib.

İyunun 26-da hərbi paraddan sonra "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd F-16 və 8 ədəd F-5 tipli təyyarələr Bakı buxtası üzərində nümunəvi uçuşlar keçiriblər.

Uçuşları paytaxt sakinləri ilə yanaşı, şəhərimizin qonaqları da izləyib.

Qardaş ölkənin şahinlərinin nümunəvi uçuşları maraqla qarşılanıb.

Türk şahinlərinin Bakı səmasında uçuşları xalqlarımızın qardaşlığının növbəti göstəricisidir.

*AZƏRTAC*

# "AzerTelecom" korporativ müştərilərə kiber hücumlardan müdafiə xidməti təqdim edir

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" korporativ müştərilərə kiber hücumlardan (DDOSS attack protection) müdafiə xidməti təklif edir. Bu, şirkətin təqdim etdiyi internetin topdan satışı, ayrılmış kanal xidməti, beynəlxalq tranzit kimi xidmətlərlə bərabər şirkətin daim təkmilləşən xidmət portfoliosuna daxildir.

Hazırda bütün dünya üzrə kiber hücumlarının geniş vüsət aldığı, xidmətdən normal istifadəyə ən müxtəlif maneələrin yaradıldığı şəraitdə belə hücumlardan qorunmaq mühüm əhəmiyyət kəsb edir. Belə ki, DDOS (A distributed denial of service - xidmətdən imtinaya gətirən hücumlar) hücumlar veb-saytın, veb-serverin və digər şəbəkə resurslarının sabit fəaliyyətini pozmaq, çətinləşdirmək məqsədilə həyata keçirilir. Bu zaman serverə xidmət tələbi ilə çoxlu sayda sorğular gəlir və sorğuların emalı üçün resurslar çatışmayanda bu, xidmətin dayanmasına və fəaliyyətin normal bərpası üçün izafi xərclərin yaranmasına gətirib çıxardır.

"AzerTelecom" şirkətinin xidmət portfoliosunda mövcud olan və müxtəlif müştərilərə təqdim edilən DDOS hücum əleyhinə müdafiə xidməti isə kiber hücumlar zamanı onların istifadə etdikləri xəttin müdafiəsini və internet xidmətinin istifadəçiyə maneəsiz çatdırılmasını təmin edir. DDOS hücum əleyhinə müdafiə müştərilərə təhlükəsiz formada internet xidmətindən istifadə etmək imkanı yaradır və onlar bu tip hücumlar zamanı əlavə xərclərin çəkilməsindən azad olurlar. "AzerTelecom" kiber hücumların dünya miqyasında artdığı şəraitdə bu hücumlardan müdafiə xidmətini innovativ texnologiya əsasında 24/7 rejimində təqdim edir.

Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatoru "AzerTelecom" MMC 2008-ci ildən fəaliyyət göstərir və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), lokal VoİP, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

*"Azərbaycan"*




# XXI Dünya çempionatı

**DÇ-2018-in TƏQVİMİ**

**28 iyun**

**G qrupu**
22:00 Panama -Tunis
*Saransk*

22:00 İngiltərə -Belçika
*Kaliningrad*

**H qrupu**
18:00 Yaponiya- Polşa
*Volqoqrad*

18:00 Seneqal -Kolumbiya
*Samara*



## ÖLÜB-ÖLÜB DİRİLDİ

**D qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Xorvatiya | 3 | 3 | 0 | 0 | 9 |
| Argentina | 3 | 1 | 1 | 1 | 4 |
| Nigeriya | 3 | 1 | 2 | 0 | 3 |
| İslandiya | 3 | 0 | 2 | 1 | 1 |

**Nigeriya - Argentina - 1:2**
*Qollar: Viktor Mozes, 50 (pen.) - Lionel Messi, 14; Markos Roxo, 87*
*Sankt Peterburq, "Sankt-Peterburq" stadionu*

**İslandiya - Xorvatiya - 1:2**
*Qollar: Qilfi Siqurdsson, 76 (pen.) - Milan Badeli, 53; İvan Perişiç, 90*
*Rostov-Don, "Rostov Arena"*

İyunun 26-da D qrupunda 3-cü tura yekun vurulub. Oyunların nəticələrinə əsasən Xorvatiya və Argentina yığmaları 1/8 finala vəsiqə qazanıblar.

Qrupun daha çox maraq kəsb edən qarşılaşması Nigeriya və Argentina yığmaları arasında oynanıldı. Ötən tur Xorvatiyaya 0:3 hesablı məğlubiyyət Argentinanı, sözün əsl mənasında, kədərə boğmuşdu. İş o yerə çatmışdı ki, Cənubi Amerika təmsilçisi 2-ci tur çərçivəsində keçirilən Nigeriya-İslandiya qarşılaşmasında birincilərdən mədət umurdular. İstədikləri olmuşdu. Nigeriya qalib gələrək Argentinanın 1/8 final qapısını aralamışdı. Qalırdı o qapını taybatay açaraq qrupdan çıxmaq. Özü də ümidlərin puç olmasının qarşısını alan Nigeriya yığması ilə.

Sosial şəbəkələrdə, mətbuatda Argentinanın növbəti mərhələyə vəsiqə qazanması üçün, demək olar ki, çox ciddi kampaniya aparılmışdı. Yəni, bu görüşdən qalib ayrılın, digər oyunun nəticəsi biz istədiyimiz kimi olacaq və 1/8 finala vəsiqə qazanacağıq. Bu isə Nigeriya yığmasında deyəsən bir xof yaratmışdı. Sanki bundan əvvəlki matçdakı afrikalılardan əsər-əlamət qalmamışdı.

Matçdan əvvəl heyəti futbolçular Messi və Maskeranonun seçəcəyi söylənmişdi. Elə də oldu.

Türkiyəli referi Cüneyt Çakırın start fitindən sonra fərqli oyunçular və taktika ilə matça başlayan Argentina top Messidə olmayanda oyun qurmaqda çətinlik çəkirdi. Lakin bunlara baxmayaraq, argentinalılar istəklərinə çatdılar. Müdafiənin arxasına atılan topda Messi dəqiq zərbə ilə komandasını hesabda irəli çıxardı və mundialın 100-cü qoluna da imzasını atdı.

Bundan sonra irəli atılan nigeriyalılar hesab arasında tarazlığı bərpa etdilər. Cərimə meydançası içərisində edilən kobudluğa görə baş hakim penalti təyin etdi. Zərbəni dəqiq yerinə yetirən Mozes hesabı bərabərləşdirdi.

Qoldan sonra hücumlarının sayını artıran Argentina səriştəsiz oyun üslubu ilə yadda qaldı. Qeyri-dəqiq ötürmələr, taktikadan uzaq futbol anlayışına rəğmən Argentina arzusuna çatdı. Markos Roxo vurduğu qol sayəsində komandasına qələbə qazandırdı.

Qrupun digər matçında isə İslandiya və Xorvatiya yığmaları üz-üzə gəldilər. Daha baxımlı futbol sərgiləyən xorvatlar 2:1 hesabı ilə qalib gələrək qrupu lider kimi başa vurdular.

Beləliklə, iyunun 30-da 1/8 final mərhələsində Fransa-Argentina, iyulun 1-də isə Xorvatiya- Danimarka qarşılaşmaları oynanılacaq.



## İLK QOLSUZ HEÇ-HEÇƏ

**C qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Fransa | 3 | 2 | 0 | 1 | 7 |
| Danimarka | 3 | 1 | 0 | 2 | 5 |
| Peru | 3 | 1 | 2 | 0 | 3 |
| Avstraliya | 3 | 0 | 2 | 1 | 1 |

**Danimarka - Fransa - 0:0**
*Moskva, "Lujniki" stadionu*

**Avstraliya - Peru - 0:2**
*Qollar: Andre Karrilyo, 18; Paolo Gerrero, 50*
*Soçi, "Fişt" stadionu*

Rusiyada futbol bayramı davam edir. İyunun 26-da C qrupunda Avstraliya-Peru və Fransa-Danimarka oyunları ilə 3-cü tura yekun vurulub. Fransa millisi 2-ci turdan sonra 1/8 finala yüksəlməyi təmin etmişdi. Pley-offa ikinci vəsiqənin taleyi isə sonuncu turun oyunlarının nəticələrindən asılı olub və Danimarka millisi növbəti mərhələyə adlayıb.

Qrupda ən maraqlı qarşılaşma Avstraliya və Peru komandaları arasında keçirilib. Oyuna fəal başlayan Peru millisi matçın 18-ci dəqiqəsində istəyinə nail olub. Perulu Andre Karrilo fərqlənərək oyunda hesabı açıb. Görüşün ilk hissəsi Peru millisinin minimal üstünlüyü ilə yekunlaşıb - 1:0.

Rusiyalı baş hakim Sergey Karasyovun idarə etdiyi oyunun 50-ci dəqiqəsində Paolo Qerrero ikinci topu Avstraliya yığmasının qapısından keçirib. Komandaların cəhdlərinə baxmayaraq, oyunun sonunadək hesab dəyişməyib. Beləliklə, görüş Peru millisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qrupun digər oyunu - Danimarka-Fransa matçı isə Moskvadakı "Lujniki" stadionunda keçirilib. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda hesab açılmayıb və dünya çempionatında ilk qolsuz heç-heçə qeydə alınıb. Əslində bu hesab hər iki tərəfi qane edirdi...



## "ALMAN MAŞINI" qəzaya uğradı

**F qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| İsveç | 3 | 2 | 1 | 0 | 6 |
| Meksika | 3 | 2 | 1 | 0 | 6 |
| Cənubi Koreya | 3 | 1 | 2 | 0 | 3 |
| Almaniya | 3 | 1 | 2 | 0 | 3 |

**Cənubi Koreya - Almaniya - 2:0**
*Qollar: Kim Yonq Qvon, 90+4, Son Hun Min, 90+6*
*Kazan. "Kazan Arena"*

**Meksika - İsveç - 0:3**
*Qollar: Avqustinsson, 50, Qranqvist, 62 (pen.), Alvarez, 74 (avtoqol)*
*Yekaterinburq. "Yekaterinburq Arena"*

Qarşılaşmadan bir gün öncə kim desəydi ki, son dünya çempionu Almaniya qrup mərhələsini adlaya bilməyəcək, hamı bunu təbəssümlə qarşılayardı. Ancaq son turda heç bir iddiası olmayan C.Koreya seçməsinin belə prinsipiallıq və xarakter nümayiş etdirməsi futbol azarkeşlərini təəccübləndirdi.

Bununla belə F qrupunda digər komandaların səkkizdəbir finala yüksəlmək şansı qaldığından qarşılaşmaların maraqlı və prinsipiallıq cəhətdən yüksək şəraitdə keçəcəyi şübhə doğurmurdu. Bu qrupun ilk iki oyununda Almaniyaya (1:0) və Cənubi Koreyaya (2:1) qalib gəlməsinə baxmayaraq, Meksika millisi səkkizdəbir finala vəsiqəni tam təmin etməmişdi. Birinci oyunda Cənubi Koreya millisinin 1:0 hesabı ilə məğlubiyyətə uğradan İsveç yığması Almaniya komandasına uduzmasına baxmayaraq (1:2), Meksika millisini məğlub edəcəyi təqdirdə səkkizdəbir finala yüksələcəkdir. Üç xalla qrupda ikinci olan Almaniya yığması isə səkkizdəbir finala vəsiqəni təmin etmək üçün Cənubi Koreya yığmasına mütləq qalib gəlməli idi. İsveçlilər meksikalılara, almanlar isə Cənubi koreyalılara qalib gələcəkləri təqdirdə qrupda üç komandanın 6 xalı olacaqdı və qalib top fərqinə görə müəyyənləşəcəkdi. Amma belə olmadı.

Lakin etiraf edək ki, bir gerçəklik var idi. O da almanların əvvəlki çempionatlara nisbətən çox inamsız təsir bağışlamaları idi. Mundialdan öncə heyətə dəvət edilən oyunçularla almanların işinin çətin olacağı hiss edilirdi. Çünki oyun istəkləri, qazanmaq arzuları, coşğulu olmayan və yorğun futbolçu profilləri ilə son dünya çempionlarının zəif halqa olduqları bundan əvvəlki qarşılaşmalarda özünü göstərmişdi. Nəticədə mundialı çox pərt halda tərk etdilər. Uzun illərdir Almaniya yığmasında olan oyun nizam-intizamından əsər-əlamət yox idi.

ABŞ-lı referi Mark Geygerin start fitindən sonra almanların oyuna daha sürətli başlayan, topa sahib olaraq, qısa ötürmələrlə rəqibin cərimə meydançası içərisinə daxil olmaq istəkləri alınmadı. Çünki C.Koreya yığması kollektiv oyun nümayiş etdirərək meydanın hər yerində mübarizə apararaq onlara boş zona buraxmadılar.

Bir sözlə, ilk hissədə fərqlənmək üçün bir neçə şansı olsa da, "Alman maşını" bundan istifadə edə bilmədi.

Fasilədən sonra yenə eyni oyun tərzi ilə meydançaya çıxan almanlar dəqiqələr ötdükcə, qol vura bilmədiklərinə görə komandada həyəcan hissi artmağa başladı. Bu, özünü qurulan hücumlarda daha çox göstərirdi. Hakimin görüşün əsas vaxtına əlavə etdiyi dəqiqələrdə qurulan əks hücumlardan koreyalılar məharətlə istifadə edərək 2 qol vurmaqla mundialı qələbə ilə, almanlar isə böyük kədərlə başa vurdular.

Digər oyunda isə Meksika yığması İsveçə 0:3 hesabı ilə məğlub oldu. Beləliklə, İsveç və Meksika millləri 1/8 finala vəsiqə qazandılar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Mundialda istefa

Avstraliya millisinin baş məşqçisi Bert van Marveyk istefa verib. Qol.az-ın xarici KİV-ə istinadən yaydığı xəbərə görə, dünya çempionatının qrup mərhələsinin son turunda Perudan alınan 0:2 hesablı məğlubiyyətdən sonra holland mütəxəssis vəzifəsindən ayrıldığını bəyan edib: "Mən millidən gedirəm. Bu, fantastik dövr idi. Yaşadıqlarımı heç vaxt unutmayacağam. Biz göstərdik ki, heyətimizdə dünya səviyyəli ulduz olmadan da yaxşı oynaya bilərik. Gələcək karyeramla bağlı indi nəsə deyə bilmərəm. Millidə çalışdığım üçün şadam. Amma bundan sonra nə olacağını zaman göstərəcək".



## Salah azarkeşlərdən üzr istədi



Misir millisinin futbolçusu Məhəmməd Salah DÇ-2018-dəki uğursuz çıxışlarına görə azarkeşlərdən üzr istəyib. Bununla bağlı o bildirib ki, onları dəstəkləməyə gələn bütün misirlilərdən üzr istəyir: "Bilirəm ki, indi onlara ağırdır. Misir millisi 28 ildən sonra ilk dəfə dünya çempionatında iştirak etdi. Bəzi oyunçularda kifayət qədər təcrübə yox idi. Biz 2022-ci ildə qayıdacağıq".

Qeyd edək ki, Misir A qrupunu xalsız başa vurub.

## SAMBA ŞOUSU

**Serbiya - Braziliya - 0:2**
*Qollar: Paulinyo, 36, Tyaqo Silva, 68*
*Moskva. "Spartak" stadionu*

**İsveçrə - Kosta-Rika - 2:2**
*Qollar: Cemaili, 31, Drmiç, 88 - Vaston, 56, Ruiz, 90+3 (pen.)*
*Nijni Novqorod. Mərkəzi stadion*

Dünən E qrupunda da 3-cü tura yekun vurulub. Bu qrupda iddiası olmayan yeganə komanda Kosta-Rika idi. Digər komandaların isə növbəti mərhələyə yüksəlmək şansları var idi.

Qrupun ən maraqlı qarşılaşması Serbiya və Braziliya yığmaları arasında oldu. Əslində serblər ötən tur İsveçrəyə uduzmaqla 1/8 finala çıxmaq şanslarını çox çətinə salmışdılar. Çünki növbəti rəqib çempion adını qazanmağa iddialı Braziliya komandası idi. Serbiya komandası Braziliya millisinə uduzduğu halda isveçrəlilər avtomatik olaraq səkkizdəbir finala yüksələcəkdi. Belə də oldu.

İranlı baş hakim Alireza Faqaninin start fitindən sonra braziliyalılar topa nəzarəti ələ keçirdilər. Onlar meydançanın mərkəzində qısa ötürmələrlə rəqibi həm fiziki, həm də psixoloji cəhətdən yorub istəklərinə çatdılar. Serblərin oyunu isə heç cür alınmadı. Qarşılaşmadan öncə verilən tapşırıqları yerinə yetirməkdə ciddi problemlər yaşadılar. Bir neçə dəfə Serbiya millisinin qapısı qarşısında təhlükəli epizod yaradan braziliyalılar 36-cı dəqiqədə istəklərinə çatdılar. Paulinyo komandasını hesabda irəli çıxartdı. Qol buraxandan sonra kollektiv şəkildə müdafiəyə çəkilən Serbiya millisi Cənubi Amerika təmsilçilərini əks hücumlarda yaxalamaq istəyirdi.

Fasilədən sonra da oyunda üstünlük braziliyalıların tərəfində idi. İstədikləri vaxt sürəti artıran və aşağı salan braziliyalılar 68-ci dəqiqədə Tyaqo Silva ilə hesab arasındakı fərqi iki topa çatdırdılar. Oyunda başqa qol olmadı.

Qrupun digər oyununda isə Kosta-Rika və İsveçrə yığmaları üz-üzə gəldilər. Bu görüş 2:2 hesabı ilə başa çatdı.

Beləliklə, Braziliya 1/8 final matçında Meksika, İsveçrə isə İsveç yığması ilə qarşılaşacaq.

**E qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Braziliya | 3 | 2 | 0 | 1 | 7 |
| İsveçrə | 3 | 1 | 0 | 2 | 5 |
| Serbiya | 3 | 1 | 2 | 0 | 3 |
| Kosta-Rika | 3 | 0 | 2 | 1 | 1 |



*Təkrar*

# Azərbaycan Respublikasının Energetika Nazirliyi açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir:**

Elektrik enerjisinin ümumi generasiya güclərində alternativ və bərpa olunan enerji mənbələrinin xüsusi çəkisinin artırılmasını, habelə alternativ və bərpa olunan enerji sahəsinə özəl investisiyaların cəlb edilməsi məqsədilə bu sahəni tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsini, güzəştli tariflərin və digər təşviqedici tədbirlərin tətbiqini əhatə edən sənədlərin hazırlanması işləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər.

**Əlaqələndirici şəxs: Gülnarə Nuriyeva (telefon: 598 16 53/54 (daxili 1130), mob: +994504502085)**
**İştirak haqqı: 1000,00 manat.**
**Bank rekvizitləri: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT :CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN: 1300087531**
**Hesab: AZ44CTRE00000000000002218301**
**Təyinatı mütləq yazılmalıdır.**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 5 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18.07.2018-ci il il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 31.07.2018-ci il saat 11:00-a qədər nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsində yerləşən ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01.08.2018-ci il saat 15:00-da nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"AZƏRİŞIQ" ASC tərəfindən 09 iyun 2018-ci il tarixində 35 ədəd sayğac oxuma avadanlıqlarının satın alınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində tender komissiyasının qərarına əsasən, "SAHİL TRADİNG" MMC qalib elan olunmuşdir. Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 48 824,86 (qirx səkkiz min səkkiz yüz iyirmi dörd manat, 86 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Qızmar günəş altında...

Azərbaycanda iyunun 28-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-24°, gündüz 33-38° isti, Bakıda gecə 22-24°, gündüz 36-38° isti olacağı ehtimalı var.

Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 30-35 faiz təşkil edəcək.

Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun hərarəti 24-25° isti olacaq.

Cənub çimərliklərində isə - Türkan, Hövsan, Sahil və Şıxda arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun hərarətinin 25-26° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında havanın yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 19-24°, gündüz 36-41° isti, dağlarda gecə 15-20°, gündüz 23-28° isti olacağı bildirilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna əsasən, iyunun 28-də Abşeron yarımadasında zəif küləklərin üstünlüyü, bəzi saatlarda durğun hava şəraiti, gündüz isti temperatur diskomfortu meteohəssas insanlar üçün əlverişsizdir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 35-40° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-20°, gündüz 23-28° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 31-36° isti, dağlarda gecə 13-18°, gündüz 21-26° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 19-24°, gündüz 36-41° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti, dağlarda gecə 15-20°, gündüz 26-31° isti olacağı ehtimal edilir.

# Toy mərasimi üçün bəzədilmiş avtomobildə külli miqdarda narkotik vasitə aşkarlanıb

Dövlət Sərhəd Xidməti (DSX) sərhəd mühafizəsinin etibarlı təmin olunması sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini uğurla həyata keçirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması təmin olunub.

Lənkəran rayonunun Vel kəndi yaxınlığındakı sahil nəzarəti məntəqəsinin xidməti sahəsində toy mərasimi üçün xüsusi bəzədilmiş "Wolkswagen" markalı AZ 90-HC-666 dövlət nömrə nişanlı avtomobillə əraziyə gəlmiş iki naməlum şəxsin hərəkətləri diqqəti cəlb edib. Həmin şəxslərin sahildən 10-15 metr məsafədə olan əraziyə güllərlə bəzədilmiş avtomobillə gecə vaxtı gəlmələri, onlardan birinin avtomobildən düşərək aralanması və əlində dolu kisə ilə qayıtması şübhə doğurub.

Həmin şəxslər şübhəli şəxs qismində saxlanılıb. Avtomobilə qoyulan kisənin içərisində ümumi çəkisi 8 kiloqram 405 qram olan narkotik maddə (o cümlədən, 6 kiloqram 115 qram tiryək, 250 qram metafetamin, 1 kiloqram həşiş qətranı, 1 kiloqram 40 qram heroin) aşkarlanıb. Saxlanılmış vətəndaşların şəxsiyyəti dəqiqləşdirilib və onların Lənkəran rayon sakinləri 1982-ci il təvəllüdlü Məmmədov Məmməd Əsəd oğlu ilə 1983-cü il təvəllüdlü Kərimov Aqşin Qubad oğlu olmaları müəyyənləşdirilib.

Fakt üzrə DSX-nin istintaq və təhqiqat idarəsi tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

# İspaniyada erməni mafiyasına zərbə endirilir



İspaniyanın güc strukturları erməni mafiyası kimi tanınan cinayətkar qruplaşmaya qarşı xüsusi iri əməliyyata başlamışlar. Bu barədə TASS agentliyi xəbər verir.

Qeyd olunur ki, əməliyyatda 1000 nəfərdən çox asayiş keşikçisi iştirak edir. 142 nəfərin tutulması planlaşdırılır. Bundan əlavə, Madriddə, Barselonada, Valensiyada və Alikantedə 73 ünvanda axtarış keçirilməsi nəzərdə tutulub.

Təhqiqatda Avropa Polis Agentliyi (Avropol) və Beynəlxalq İnterpol Təşkilatı iştirak etmişdir. Polislərin dediyinə görə, söhbət ən iri cinayətkar qruplaşmaların birindən gedir. Onun üzvləri Ermənistan vətəndaşlarıdır.

# Çexiyada yeni hökumət təyin olundu



Çexiya Prezidenti Miloş Zeman yeni hökumətin nazirlərini təyin etmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Hökuməti kommunistlərin dəstəyi ilə baş nazir Andrey Babişin rəhbərlik etdiyi "Narazı vətəndaşların aksiyası" hərəkatı formalaşdırmışdır. Zeman ümidvar olduğunu bildirmişdir ki, Nazirlər Kabinetinin yeni üzvləri əvvəlki komanda kimi səmərəli işləyəcək.

Xatırladaq ki, iyun ayında Zeman milyarder Andrey Babişi təkrarən hökumət başçısı vəzifəsinə təyin etmişdir. Onun mərkəzçi hərəkatı ötən ilin oktyabrında parlament seçkilərində qalib gəldikdən sonra Çexiya Prezidenti Babişi baş nazir vəzifəsinə təyin etsə də, parlament ona etimad göstərməmişdir.

# Hindistanda Su-30 MKİ qırıcı təyyarəsi qəzaya uğradı



Hindistanın hərbi hava qüvvələrinə təhvil verilməmişdən əvvəl sınaqdan keçirilən Su-30 MKİ qırıcı təyyarəsi ölkənin Maxaraştra ştatında qəzaya uğramışdır. Bu barədə "The Times of İndia" qəzeti xəbər verir.

Hər iki pilotun katapultadan istifadə etdiyi bildirilir. Hadisə nəticəsində yerdə həlak olanlar, yaxud yaralananlar barədə məlumat verilmir. Qəzetin yazdığına görə, indiyədək 8 Su-30 MKİ qırıcısı qəzaya uğramışdır. Eyni zamanda, Rusiya ilə 12 milyard dollarlıq kontrakt çərçivəsində ölkəyə 272 təyyarədən 240-ı gətirilmişdir.

# Efiopiya və Eritreya hava əlaqəsini bərpa edirlər



Son 20 ildə ilk dəfə "Ethiopian Airlines" aviaşirkəti Eritreyaya reyslərini bərpa edir. Bu barədə ərazi mübahisəsinin tənzimlənməsinə dair Eritreya nümayəndə heyəti ilə danışıqlardan sonra Efiopiyanın Baş naziri Abiy Əhməd məlumat vermişdir. Hava reysləri iki ölkə arasında münaqişəyə görə dayandırılmışdı.

Xatırladaq ki, 1952-1983-cü illərdə Eritreya Efiopiyanın tərkibində idi. 1998-2000-ci illərdə sərhədyanı ərazilərə nəzarət uğrunda mübahisəyə görə Efiopiya ilə Eritreya arasında silahlı münaqişə baş vermişdir. Nəticədə 80 minə yaxın adam həlak olmuşdur.

# Atəşkəs rejimi 118 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 118 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar və Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Aşağı Əskipara, Qızılhacılı və Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq, Muncuqlu və Qaralar kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Şıxlar, Baş Qərvənd, Şirvanlı, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# A L L A H  R Ə H M Ə T  E L Ə S İ N !

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Bəxtiyar Sadıqov Bakı Apelyasiya Məhkəməsinin sədri, Hakimlərin Seçki Komitəsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı İqbal Məmmədova əzizi

**EMİLİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparatın şöbə müdiri Tofik Xammədova anası

**XƏDİCƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhər Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı Apelyasiya Məhkəməsinin sədri, Hakimlərin Seçki Komitəsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Aqşin Rüstəmova qardaşı

**ELXAN RÜSTƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Əzizli və Tanrıverdi Mustafayev dostları Nəsimi Paşayevə atası

**MƏZAHİR PAŞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin doktorantura və magistratura şöbəsinin müdiri, dosent Sabir Xəlilova anası

**FATMA XƏLİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev və məhkəmənin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin rəhbərliyi və kollektivi müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Qazax rayonundan Rəcəb Babaşov müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Gəncə Ağır Cinayətlər Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri 4 saylı hüquq məsləhətxanasının kollektivi iş yoldaşları vəkil Əjdər Cavadova atası

**ƏMRAH CAVADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi müdafiə sənayesi naziri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəhim Quliyev, Rəhman Quliyev və Rauf Quliyev Mərdan Camalova, Əlihüseyn Camalova, Əlikram Camalova və Pirverdi Məmmədova əzizləri

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Bakı şəhəri 12 saylı vəkil bürosunun kollektivi büronun vəkili Günay Cəfərliyə əmisi

**ŞAHİN CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8685
Sifariş 1879